

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 241 (23.883)

25 dekabr 2021-ci il, şənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfər edib, burada hərbi hissənin açılışında iştirak ediblər. Dövlətimizin başçısı tədbirdə çıxış edib, Qarabağın Xocavənd rayonunda, Hadrutda yeni hərbi hissə açılması münasibətilə hərbçiləri təbrik edib.

Sonra Azərbaycan Respublikası Prezidentinin 218-ci Komando Briqadasına döyüş bayrağının verilməsi haqqında təqdimatı oxunub. Briqada komandiri, polkovnik Sanayev döyüş bayrağını təhvil alıb. Dövlətimizin başçısı, birinci xanım və oğulları təlim mərkəzi ilə tanış olub və təlim fəaliyyətini izləyiblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri həmin gün Şuşa şəhərinə gəliblər. Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Yuxarı Gövhər Ağa məscidini ziyarət ediblər. Sonra Prezident İlham Əliyev Şuşanın məşhur Cıdır düzündə çıxış edərək deyib: "Bu gün biz azad Qarabağdayıq. Bu gün biz azad Zəngəzurdayıq. Biz – bu torpaqların sahibləri bu torpaqlara qayıtmışıq və bundan sonra biz bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan xalqının mənim sözlərimə inamı məni daha da çox inandırırdı ki, biz buna nail olacağıq. Xalqımız birləşdi, bir amal uğrunda, bir müqəddəs ideya uğrunda birləşdi və istədiyinə nail oldu".

## Naxçıvanda şəhid ailələrinə və qazilərə mənzillər və avtomobillər təqdim olunub





Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında şəhid ailələrinə və müharibə iştirakçılarına hərtərəfli qayğı göstərilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il sentyabrın 23-də "Naxçıvan Muxtar Respublikası ərazisində yaşayan Vətən müharibəsi ilə əlaqədar şəhid ailəsi statusu almış, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzil-məişət şə-



raitinin yaxşılaşdırılması haqqında" Sərəncam imzalamış, 1 milyon manat vəsait ayrılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 dekabr 2020-ci il tarixli Fərmanına əsasən isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu yaradılmışdır. 2021-ci ildə ölkə Prezidentinin müvafiq Sərəncamı ilə ayrılmış və dəstək fondunun vəsaitləri hesabına muxtar respublikada 23 şəhid ailəsi və qazi mənzillə, 18 Vətən müharibəsi iştirakçısı avtomobillə təmin olunmuş, müvafiq kateqoriyadan olan 23 şəxsin müalicə və müayinəsinə köməklik göstərilmiş, şəhid ailələri və qazilərdən 17-nin kredit borcu ödənilmiş, 25-nin isə mənzilləri təmir olunmuşdur.

Bu tədbirlərin davamı olaraq dekabrın 24-də – Azərbaycan Respublikası Prezidentinin yubileyində Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində 3 şəhid ailəsinə və 2 qaziyə mənzillər, 10 Vətən müharibəsi iştirakçısına isə avtomobillər təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: "Əziz şəhid ailələri və qazilər! Azərbaycanın müstəqilliyinin ilk illəri ağır sınaqlardan keçmiş, ölkəmiz vətəndaş müharibəsi və işğal təhlükəsi ilə üzləşmişdi. Belə bir dövrdə ümummilli liderimiz Heydər Əliyevin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanda ictimai-siyasi sabitliyi və inkişafı təmin etmişdir. Bu gün isə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf konsepsiyasının bəhrəsi olaraq Azərbaycan dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanı parçalanmaqdan xilas edərək Milli Qurtuluşa, ölkə Prezidenti cənab İlham Əliyev isə ərazi bütövlüyümüzü təmin etməklə tarixi Zəfərə qovuşdurmuşdur".

Ali Məclisin Sədri əlamətdar gündə qəhrəman şəhidlərimizin əziz xatirəsinə ehtiramını bildirmiş, şəhid ailələrini və qaziləri mənzillər və avtomobillərlə təmin olunmaları, eləcə də bütün şəhid ailələrini, veteranları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramları münasibətilə təbrik etmişdir.

Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini və avtomobillərin açarlarını təqdim etmişdir.

"Cəsur döyüşçü" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif olunan qazi İbrahim Nəcəfov şəhid ailələri və qazilər adından dövlətin onlar üçün yaratdığı şəraitə və göstərilən qayğıya görə minnətdarlıq etmişdir.

Şəhid Kənan Rzayevin anası Bahar Əhmədova minnətdarlıq edərək demişdir: "Oğlum Kənan Vətən uğrunda şəhid oldu. Dövlətimiz şəhid ailələrinə və qazilərə xüsusi diqqət və qayğı göstərir, onların problemləri ilə maraqlanır. Mən də bu qayğıdan yararlanaraq dövlət tərəfindən təmənnasız əməliyyat olunmuşam. Şəhidlərimizə rəhmət diləyir, qazilərimizə cansağlığı arzu edirəm".



Sonda xatirə şəkli çəkdirilmiş, avtomobillərə baxış olmuşdur.

Şəhid ailələrinə və qazilərə verilən mənzillər Culfa, Babək və Naxçıvan şəhərlərindəki yaşayış binalarında yerləşir. Tam təmir olunan mənzillərə mebel dəstləri qoyulmuş, lazımi məişət şəraiti yaradılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Prezident İlham Əliyev Naxçıvan: 2003-2021




Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 60 illik yubileyi münasibətilə Naxçıvanda çap olunmuş "Prezident İlham Əliyev. Naxçıvan: 2003-2021" kitabı dahi şəxsiyyətin bu fikirləri ilə başlayır.

Əsası 1969-cu ildə qoyulmuş inkişafın Heydər Əliyev yolunun bəhrələri bugünkü qüdrətli Azərbaycandır. Bu gün ulu öndərimizin siyasi xəttinin layiqli davamçısı, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müasir tarixinin şanlı səhifələri yazılır. Ulu öndərimizin əsasını qoyduğu inkişaf strategiyasını uğurla davam etdirən cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin inkişafı daha da sürətlənmiş, yeni-yeni uğurlara imza atılmışdır. Ulu öndərin yoluna sədaqətin nəticəsi olaraq Azərbaycanın Naxçıvan Muxtar Respublikası da kompleks inkişaf mərhələsinə qədəm qoymuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2003-2021-ci illərdə muxtar respublikaya səfərləri zamanı iştirak etdiyi tədbirlərin materialları və fotoşəkilləri, dövlət başçısının çıxış və müsahibələri əsasında hazırlanmış ensiklopedik nəşrdə Naxçıvanın ötən 18 ildə keçdiyi inkişaf yolu dolğun əks olunmuşdur. Dövlət başçısı kimi fəaliyyəti dövründə cənab İlham Əliyev 15 dəfə Naxçıvan Muxtar Respublikasına səfər etmiş, Onun iştirakı ilə 100-ə yaxın təhsil, səhiyyə, idman və mədəniyyət müəssisələri, istehsal sahələri və hərbi təyinatlı obyektlər istifadəyə verilmişdir.

2004-cü il mayın 12-də Prezident kimi muxtar respublikaya ilk səfəri zamanı ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Naxçıvan Beynəlxalq Hava Limanının açılışında iştirak edən dövlət başçısı demişdir: ***"Naxçıvan hər bir azərbaycanlı üçün əziz, doğma torpaqdır. Azərbaycanın qədim torpağıdır. Naxçıvanda son illər ərzində aparılan abadlıq, quruculuq işləri bizim hamımızı çox sevindirir. Çətin şəraitdə, blokada şəraitində yaşayan naxçıvanlılar böyük işlər görüblər. Bu hava limanının tikilməsi, şəhərdə digər obyektlərin inşa olunması, yüksək səviyyədə tikilməsi onu göstərir ki, Naxçıvan çox sürətlə inkişaf edir".***

Bu illər ərzində muxtar respublika iqtisadiyyatının inkişafı diqqətdə saxlanılmışdır. Həyata keçirilən tədbirlər kənd təsərrüfatının və sənayenin inkişafına səbəb olmuş, sahibkarlığa dövlət dəstəyi hesabına iri sənaye kompleksləri və yeni istehsal sahələri yaranmışdır. Ölkə Prezidentinin xüsusi diqqət göstərdiyi sənaye sahələrinin yaradılması prosesində muxtar respublikanın da iştirak etməsi, ilk növbədə, əhalinin məşğulluğunun təmin olunmasına geniş imkanlar açmışdır.

Muxtar respublikanın 80, 85 və 90 illik yubileylərində ölkə başçısının iştirak etməsi Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana göstərilən diqqətin əyani ifadəsidir. Kitabda yubileylərlə bağlı materiallara geniş yer verilmişdir. Xüsusilə muxtar respublikanın 90 illik yubiley tədbirində Naxçıvanın muxtariyyət statusunun əhəmiyyətinə toxunan dövlət başçısının ***"Naxçıvanın qədim dövlətçilik tarixi vardır... Naxçıvana 90 il bundan əvvəl Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Bu, gözəl hadisə idi, tarixi hadisə idi"*** fikirləri mühüm tarixi və siyasi əhəmiyyətə malikdir.

Ölkəmizdə olduğu kimi, muxtar respublikada da elm və təhsilin inkişafına göstərilən qayğı bir daha təsdiq edir ki, bu sahə dövlət siyasətinin prioritetidir. Kitabda ölkə Prezidentinin iştirakı ilə Naxçıvanda yeni elm müəssisələrinin, məktəb binalarının, universitet korpuslarının açılışlarından hazırlanmış materiallar və fotoşəkillər yerləşdirilmişdir.

***"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun rahatlığı, sağlamlığı dayanır"***, – deyən ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi islahatlar sosial siyasətin başlıca istiqamətlərindən biridir. Dövlət başçısının iştirakı ilə muxtar respublikada Diaqnostika Müalicə Mərkəzinin, Naxçıvan Muxtar Respublika Xəstəxanasının, Doğum Mərkəzinin, Duzdağ Fizioterapiya Mərkəzinin, rayon mərkəzi xəstəxanalarının, Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının və digər səhiyyə obyektlərinin istifadəyə verilməsi, tibb müəssisələrinin ən müasir avadanlıqlarla təmin olunması insan amilinə verilən qiymətin bariz nümunəsi kimi geniş oxucu kütləsinə təqdim edilir.

Kitabda əsas diqqət çəkən məsələlərdən biri də muxtar respublikada bu illər ərzində enerji təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlərdir. Ötən 18 ildə muxtar respublikada elektroenergetika infrastrukturunun müasirləşdirilməsi, təbii qaz təchizatı, alternativ və bərpa olunan enerji mənbələri ilə bağlı mühüm layihələrin reallaşdırılması enerji təhlükəsizliyini təmin etmişdir. Əgər 2003-cü ilin sonuna muxtar respublikada 1 elektrik stansiyası fəaliyyət göstərirdisə, 2020-ci ildə bu göstərici 9-a çatdırılmışdır. Bir zamanlar enerji idxal edən Naxçıvan artıq enerji ixrac edən bir diyara çevrilmişdir. 2005-ci ildə Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi isə yaşayış məntəqələrini tam qazlaşdırmışdır.

Kitabın ən mühüm cəhətlərindən biri də cənab İlham Əliyevin Naxçıvanın müdafiə təhlükəsizliyi ilə bağlı gördüyü işlərin, istifadəyə verdiyi hərbi obyektlər haqqında məlumatların sistemli şəkildə təqdim olunmasıdır. Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu strategiyasını uğurla davam etdirən Ali Baş Komandanın rəhbərliyi ilə muxtar respublikadakı ordu, birləşmə və hissələr böyük təşkilatlanma və inkişaf yolu keçmişdir. Torpaqlarımızın işğaldan azad olunmasında Əlahiddə Ümumqoşun Ordunun uğurlarına toxunan ölkə Prezidentinin dediyi kimi: ***"İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər".***

Azərbaycan Prezidentinin rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən Dövlət proqramlarının uğurlu icrası Naxçıvan Muxtar Respublikasında da bütün sahələrin inkişafına geniş imkanlar açıb. 2003-cü ildən ötən dövrdə muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi 16 dəfə, sənaye məhsulunun həcmi 56 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi 7,5 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 13 dəfə artıb. Muxtar respublikada 183 elm və təhsil ocağı, 304 mədəniyyət obyekti, 217 səhiyyə obyekti, 23 idman obyekti, 327 inzibati bina, 1089 istehsal və xidmət sahəsi tikilərək, 155 elm və təhsil ocağı, 178 mədəniyyət obyekti, 59 səhiyyə obyekti, 23 idman obyekti, 254 inzibati bina, 2218 kilometr yol yenidən qurularaq sakinlərin istifadəsinə verilib, 78 mindən artıq yeni iş yerləri açılıb.

Nəşrdə bütün bunlara bir daha nəzər salınır, ölkə Prezidentinin muxtar respublikanın inkişafı ilə bağlı çıxışlarına geniş yer verilir. Xüsusilə dövlət başçısının bu il mayın 10-da Naxçıvana səfəri zamanı muxtar respublikanın ümumi inkişafını xarakterizə edən fikirləri daha çox diqqəti cəlb edir: ***"Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün ulu öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax, bu inkişafda təcəssüm etdirir".***

"Prezident İlham Əliyev. Naxçıvan: 2003-2021" kitabı dövlət başçısının qayğısı ilə ötən 18 ildə Naxçıvan Muxtar Respublikasının keçdiyi inkişaf yolunu tarixləşdirməklə yanaşı, həm də bu dövrü tədqiq edənlər üçün sanballı nəşrdir.

**"Şərq qapısı"**


















# Vətənə, xalqa, dövlətə bağlılıq yolu

## və ya Naxçıvan yenidən qurulduqca daha da gözəlləşir

***Günü-gündən qloballaşan və təzadlarla dolu olan yaşadığımız həyatda insan ömrü çox qısadır. Ulu Dədə Qorqud deyirdi: “Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya”. Məsələ bu qısa zaman kəsiyində elə ömür yaşamaqdır ki, cəmiyyət üçün faydalı işlərlə yaddaşlarda qalsın. Belə yaşamaq yolunu tutan kamil insanlar öz yaxşı əməlləri ilə, necə deyərlər, o yolu uzada bilirlər. Həmin əməllərin fövqündə dayanan isə Ulu Tanrının bizə bəxş etdiyi ömrü mənsub olduğun dövlətə və xalqa fədakarlıqla xidmət etməkdir.***

Bu yolu seçənlər, bu yolda çətinlikləri dəf etməyi bacaranlar mənzilbaşına çatıb arxaya dönəndə qət etdiyi yolun doğruluğunu, bir qədər obrazlı desək, şirinliyini görürlər. Cəmiyyət qarşısında alnıaçıq, üzüağ olduqları üçün ürəkdolusu nəfəs alırlar. Bu da ulu Dədə Qorqudun tövsiyəsidir: “Doğru yolu görürkən, əyri yoldan gəlməyəlim”.

Cəmiyyət öz inkişafı tarixində dəyişən müxtəlif mərhələlərdən keçir. Quruluşlar dəyişir, hakimiyyətlər bir-birlərini əvəz edir, dünənlə bu gün arasındakı fərq dəyərləndirilir. Dəyişməyən isə ən qiymətli dəyər kimi yaşadığın ömrün gərəkli olmasıdır.

Yaşadığın ömrün xalqa gərəkli olması ciddi əxlaqi problemdir. Bu hiss, bu mənəvi keyfiyyət insanın daxili təmizliyidir, saflığıdır, mənsub olduğu xalqa sevgi və məhəbbətidir, dövlətə və dövlətçiliyə sədaqətidir, obyektivlik meyarıdır, insan əməyinin əsl qiymətini verən ölçüdür. Yalnız bu yolla güclü şəxsiyyətə çevrilmək olar. Bu yolla mənalı ömür sürmək, xalqa, cəmiyyətə fayda vermək, hər bir şəraitdə haqqa, ədalətə qahmar çıxmaq olar. Belə yol seçənlər həmişə yüksəkdə duraraq cəmiyyətdə fəal həyat mövqeyi tutur, xalqın sevimlisinə çevrilir.

Ulu öndərimiz Heydər Əliyev xalqa, dövlətə xidmət yolunu tutan insanlara böyük dəyər verirdi. Çünki ümummilli liderimiz özü də bu yolun yolçusu idi. Bu gün bu yol böyük ehtiramla davam etdirilir. Elə yaşadığımız bu qədim yurd yerində – Naxçıvanda dövlətə, xalqa xidmət yolunun uca zirvələr fəth etməyin ən düzgün yolu olduğu artıq sübuta yetirilib. Bu gün hər bir naxçıvanlının dövlətə və dövlətçiliyə sədaqəti doğru yolda olmasının ifadəsidir. Dövlətə və dövlətçiliyə sədaqəti isə insanların həyat səviyyəsində, yaşayışında bütün çalarları ilə görmək olar. Bu yol naxçıvanlıların qurub-yaratmaq əzmini günü-gündən yüksəldir, gənclərin, yeniyetmələrin doğma torpağa, xalqa, Vətənə bağlılığını, onun taleyinə cavabdehlik hisslərini gücləndirir, ən qiymətli sərvət olan müstəqilliyimizi qorumağa, onu daha da möhkəmləndirməyə çağırır.

Naxçıvanlılar görürlər ki, bu yol müqəddəs yoldur – davam etdikcə uğurlarımız da artır. Azərbaycan dövlətçiliyinin intişar tapdığı bu qədim diyar müstəqillik illərində keçdiyi sürətli inkişaf yolu ilə, doğrudan da, dövlətçiliyin beşiyi olduğunu sübut edib. Ölkəmizin müstəqilliyi üçün taleyüklü məsələlərin bu diyarda öz həllini tapması bu gün hər birimizə böyük qürur hissi yaşadır. Və hər bir naxçıvanlı müstəqillik kimi böyük bir nemətin daha da əbədi olması prinsipi ilə yaşayır. Bu prinsip naxçıvanlıların həyat idealına çevrilib. Fərqi yoxdur, istər yüksək postda duranlar, istərsə də sıravi insanlar üçün dövlətçilik, dövlətçiliyə sədaqət ən ali vəzifədir. Hamı bu vəzifəni yerinə yetirməyi özünün vətəndaşlıq borcu sayır. Bu borc uşaq bağçasından tutmuş ali məktəblərədək təlqin olunur. Belə vətəndaşlıq borcunun layiqincə yerinə yetirilməsi dövlətçiliyin, müstəqilliyin sabahına ən böyük zəmanətdir. Naxçıvanlılar vətəndaşlıq borcunun yerinə yetirilməsini özlərinin həyat kredosu hesab edirlər.

Bunun ifadəsidir ki, bir ucu sərhəd bölgəsi Sədərək, bir ucu bağlar diyarı Ordubad, dağlar qoynunda füsunkarlıq rəmzi olan Şahbuz, digər bölgələrimiz inkişaf və tərəqqinin yeni müstəvisindədir. Rayon mərkəzləri ilə yanaşı, ucqar dağ kəndləri, sərhəd və ən kiçik yaşayış məntəqələri qəsəbə timsallıdır.

Dünən Naxçıvanın qonağı olanlar bu gün təəccüblərini gizlədə bilmirlər. Hər addımda bir yenilik görmək, hər gün bir təzəliklə rastlaşmaq naxçıvanlılar üçün adi hala çevrilib. Naxçıvan yenidən qurulduqca daha da gözəlləşir. Xaricdən buraya gələn və yurdumuzun inkişafı barədə bir qədər məlumatı olan bir turistin sözlərini xatırlayıram: Bu yeniliklər gündəlik olaraq sizin gözləriniz qarşısında baş verdiyi üçün sizə adi görünür. Bu yeniləşmənin, inkişaf və tərəqqinin təməlində nəyin dayandığını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri belə xarakterizə edir: ***“Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişafının əsasında Heydər Əliyev siyasi xətti dayanır. Dahi rəhbərin yoluna sədaqət qarşıda dayanan vəzifələrin uğurlu icrasını təmin edəcəkdir. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: “Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, tutduğumuz yoldan dönməyəcəyik, daim irəli gedəcəyik”.***

Ancaq görülən bu işlərin blokada şəraitində yaşayan bir məmləkətdə reallaşdırılması da kiçik məsələ deyil. Və bütün bunların təməlində doğma yurda bağlılıq, sevgi və məhəbbət, insan amilinə, yurd amilinə böyük diqqət, ulu öndər Heydər Əliyev ideyalarına böyük sədaqət dayanır.

Bu illər ərzində hər gün, hər saat dəyişən məmləkətimiz başdan-ayağa, sözün həqiqi mənasında, hər sahədə yeni quruculuq dönəmindədir.



Gündən-günə sayı artan məktəb, səhiyyə, mədəniyyət ocaqlarının yeni binaları, salınan yaşayış massivləri, yeni emal və istehsal müəssisələrinin həyata vəsiqə alması, insanların məşğulluq probleminin həllinə nail olunması, informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqi... Bunlar Naxçıvanın bugünkü mənzərəsidir. Görkəmli dövlət xadimi Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını uğurla həyata keçirən ölkə başçısı cənab İlham Əliyev muxtar respublikada aparılan irimiqyaslı quruculuq tədbirlərini yüksək qiymətləndirərək demişdir: ***“Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır”.***

Uzağa getmədən bu liderliyi özündə təcəssüm etdirən elə yaşadığımız 2021-ci ilin yanvar-noyabr aylarına nəzər salaq. Bu dövrdə inkişafı xarakterizə edən əsas göstərici kimi ümumi daxili məhsul istehsalı 2 milyard 631 milyon 572 min 600 manat olub. Bu, ötən ilin müvafiq dövründəki göstəricidən 1,4 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,6 faiz artaraq 5693,6 manata çatdırılıb.

Ümumi inkişafın təmin edilməsində vəsait qoyuluşları böyük əhəmiyyət daşıyır. Bu istiqamətdə muxtar respublikada bəhs olunan dövrdə bütün maliyyə mənbələrindən əsas kapitala 961 milyon 676 min 200 manat vəsait yönəldilib. Vəsait qoyuluşlarının 914 milyon 688 min 400 manatı və ya 95,1 faizi tikinti-quraşdırma işlərində istifadə edilib.

Bu, bir həqiqətdir ki, Naxçıvan son onilliklərdə buraya gələnlərdə böyük tikinti meydançası təsəvvürü yaradır. Hər il paytaxt şəhərimizdən tutmuş ən ucqar sərhəd və dağ yaşayış məntəqələrində çoxsaylı yeni obyektlər istifadəyə verilir. Muxtar respublikanın gözəlliyə qovuşmasında bu obyektlər mühüm rol oynayır.

Həyata keçirilən uğurlu siyasət muxtar respublikanın sənayeləşmə prosesini daha da sürətləndirib, bəhs olunan dövrdə muxtar respublikada ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutub. Belə ki, bu sahə üzrə 991 milyon 794 min 100 manat dəyərində məhsul istehsal edilib.

Bəhs olunan dövrdə aqrar bölmədə də böyük irəliləyiş müşahidə edilib. Belə ki, 483 milyon 441 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub.

Muxtar respublikada təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılır. Bəhs olunan dövrdə bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 207 milyon 694 min 500 manat məbləğində kreditlər verilib. Bu da bir il öncəki göstəricidən 26 faiz çoxdur. Verilmiş kreditlərin 22 milyon 214 min 400 manatı qısamüddətli, 185 milyon 480 min 100 manatı isə uzunmüddətli kreditlər olub.

Hər il olduğu kimi, cari ildə də sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması diqqətdə saxlanılıb. Göstərilən qayğı bəhrələrini verib. Bunun ifadəsidir ki, hazırda muxtar respublikada 384 növdə məhsul istehsal edilir. Bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

İnkişaf göstəriciləri rabitə və yeni texnologiyalar sahəsini də əhatə edib. Əhaliyə nümunəvi rabitə xidmətinin göstərilməsi məqsədilə müasir rabitə sistemi yaradılıb, ən ucqar dağ kəndlərində belə, genişzolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri istifadəyə verilib. Bu dövrdə informasiya və rabitə xidmətlərinin dəyəri 55 milyon 566 min 600 manat olub. Bu da əvvəlki ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 6,8 faiz çoxdur. Bu dövr ərzində rabitə xidmətinin dəyəri 41 milyon 831 min 500 manat təşkil edib. Bəhs olunan dövrdə digər sahələrə göstərilən qayğı da davam etdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə bu mətbu orqanın muxtar respublika səviyyəsində geniş qeyd edilməsi, qəzet əməkdaşlarının əməyinin qiymətləndirilməsi deməyə əsas verir ki, muxtar respublikada jurnalistikanın da inkişafına böyük önəm verilir. Qədim diyarımızda söz, fikir və mətbuat azadlığının təmin edilməsi, sərbəst yaradıcılıq imkanları yaradılması nəticəsində teleradiolar və qəzetlər üçün müasir maddi-texniki baza istifadəyə verilib, yeni informasiya agentliyi fəaliyyətə başlayıb, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 21 yanvar tarixli Fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında “Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxs yaradılıb.

Heç şübhəsiz ki, muxtar respublikada son onilliklər ərzində əldə olunan çoxsaylı uğurların, inkişaf və tərəqqinin əsasında elm və təhsil quruculuğu, güclü kadr potensialının formalaşdırılmasına dövlət qayğısı, həssas münasibət dayanır. Ötən dövr ərzində müasir informasiya texnologiyaları ilə təmin olunmuş 200-dən artıq məktəb binası istifadəyə verilib, orta ixtisas və ali təhsil müəssisələri üçün yeni tədris korpusları tikilib, 2 universitet şəhərciyi salınıb, peşə məktəbləri yaradılıb. Təhsilin inkişafı, innovativ təhsil üsullarının tətbiqi istiqamətində diyarımızda “İnnovativ dərnəklər”, “Sabahın tədqiqatçıları”, “Sabahın müəllimi”, “İnteraktiv dərs”, “Nümunəvi dərs”, “Distant təhsil” layihələri reallaşdırılır. Şagirdlərə elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın birgə və inteqrasiya olunmuş şəkildə tədrisi ideyası üzərində qurulan STEAM təlim metodu tətbiq edilir. Ali Məclis Sədrinin ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə bağlı imzaladığı tarixi sərəncamlar gələcək mütəxəssislə işəgötürən arasında əməkdaşlığın, düzgün kadr seçiminin müəyyənləşdirilməsi baxımından əhəmiyyət kəsb edir. Bu isə, təbii ki, elmi potensialın artması ilə nəticələnib. Cari ilin sentyabr ayının 21-də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə müşavirə keçirilməsi, müşavirədə bölmə yaradılandan sonra görülən işlər və qarşıda duran vəzifələrlə bağlı Ali Məclis Sədrinin geniş məruzəsi bölmə əməkdaşları tərəfindən fəaliyyət proqramına çevrilib.

Günbəgün inkişaf edən, müasirləşən, abadlaşan Naxçıvan bu gün mənfur düşmən üçün ikiqat gözdağıdır. Ona görə ki, qədim diyarda əsası ümummilli lider tərəfindən qoyulan ordu quruculuğu siyasəti bu gün uğurla davam etdirilir. Ali Məclisin Sədri muxtar respublikanın hərtərəfli inkişafına ciddi fikir verməklə yanaşı, diyarın geosiyasi vəziyyətini də daim diqətdə saxlayır, ölkə başçısının da diqqət və qayğısından bəhrələnərək Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi, ixtisaslı hərbçi kadrların yetişdirilməsi ilə hərbi potensialı əsaslı şəkildə möhkəmləndirib.

Aparılan ordu quruculuğu siyasətinin bəhrəsidir ki, Əlahiddə Ümumqoşun Ordu muxtar respublikanın ərazisini qorumaqla yanaşı, İkinci Qarabağ müharibəsində də əsl rəşadət və vətənpərvərlik nümunəsi göstərib. Bu azadlıq mücadiləsində Əlahiddə Ümumqoşun Ordu əsgər və zabitləri də qədim diyarda formalaşmış vətənpərvərlik, torpağa bağlılıq, yurdu sevmək kimi keyfiyyətlərini ortaya qoydular. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev çıxışlarında bunu dəfələrlə yüksək dəyərləndirib: ***“Naxçıvanlılar da ikinci Qarabağ müharibəsində bütün digər bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Böyük qəhrəmanlıq göstəriblər. Və torpaqlarımızın azad edilməsində fədakarlıq göstəriblər. Şəhidlər veriblər”.***

Başda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olmaqla, naxçıvanlılar Naxçıvan Beynəlxalq Hava Limanında 20 dəfə bu qədim diyara gətirilən şəhidlərin yüksək sevgi, sonsuz məhəbbət hissləri ilə qarşılanması Naxçıvanda bərqərar olunmuş birliyin ifadəsi idi. Bu gün naxçıvanlı şəhid ailələri və qazilər ən yüksək diqqət və qayğı ilə əhatə olunublar.

Cari ilin may ayının 10-da muxtar respublikaya rəsmi səfərə gələn ölkə Prezidenti cənab İlham Əliyevin qədim diyarımızda bir neçə obyektin açılışında iştirakı, burada görülən işləri yüksək dəyərləndirməsi hamımızı qürurlandırdı. Azərbaycan Televiziyasına verdiyi müsahibədə reallaşan layihələrin, öz həllini tapmış məsələlərin onu çox sevindirdiyini diqqətə çatdırması qədim yurd yerində inkişaf və tərəqqinin yeni mərhələyə qədəm qoymasının dövlət başçısı tərəfindən təsdiqi idi. Təbii ki, bu proses Naxçıvanda həyatın bütün sahələrini əhatə edir. Prezident həmin sahələrə diqqət çəkərək dedi: ***“Təəssüratlarım çox müsbətdir. Hər zaman Naxçıvanda olanda, burada inkişafı görəndə çox sevinirəm...***

***Naxçıvan sürətlə inkişaf edir. Bütün sahələr üzrə işlər müsbət istiqamətdə gedir. Bu gün bir neçə infrastruktur layihəsinin açılışında iştirak etmişəm, o cümlədən Ordubad şəhərində içməli su və kanalizasiya layihəsinin istifadəyə verilməsini qeyd etmişik. Yollarla, elektrik təchizatı, qazlaşdırma ilə bağlı – bütün istiqamətlər üzrə muxtar respublikada görülən işlər məni çox sevindirir. Təkcə onu demək kifayətdir ki, qazlaşdırmanın səviyyəsi artıq 100 faizə çatıb. Elektrik enerjisi ilə təchizat 100 faizə çatıb və Naxçıvanda çox böyük enerji potensialı yaradılıb. Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpa olunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir...***

***Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir”.***

*Muxtar respublikanın rekordsmen bölgəyə çevrilməsi isə ümummilli liderin inkişaf strategiyasının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən uğurla həyata keçirilməsi Heydər Əliyev ideyalarına sonsuz sədaqət sayəsində mümkün olub, görkəmli dövlət xadiminin Naxçıvanla bağlı arzuları tamamilə reallaşıb:* ***“Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin”.***

✍ **Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Naxçıvanda ilk dəfə tədrisi həyata keçirilən Hərbi tibb ixtisasının təqdimatı olub



***Naxçıvan Dövlət Universitetində ilk dəfə tədrisi həyata keçirilən Hərbi tibb ixtisasının təqdimatı olub.***

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, muxtar respublikada ilk dəfə olaraq 2021-2022-ci tədris ilindən etibarən Hərbi tibb ixtisasına tələbə qəbulu aparılıb. Vurğulanıb ki, 1999-cu ildə fəaliyyətə başlayan Tibb fakültəsində yaradılan müasir tədris şəraitinin nəticəsidir ki, Hərbi tibb ixtisası uğurla fəaliyyətə başlayıb. Rektor bu ixtisas üzrə artıq 10 tələbənin təhsil aldığını qeyd edib. Bildirilib ki, hazırda fakültədə Müalicə işi, İctimai səhiyyə, Tibbi profilaktika, Əczaçılıq, Stomatologiya və bu il qəbulu aparılan Hərbi tibb və Psixologiya ixtisasları da daxil olmaqla, 8 ixtisas üzrə kadr hazırlığı aparılır. Diqqətə çatdırılıb ki, fakültədə 1257 tələbə təhsil alır. Rektor qeyd edib ki, fakültə məzunlarına göstərilən diqqət və qayğının nəticəsidir ki, məzunların 200-dən çoxu muxtar respublikanın səhiyyə müəssisələrində çalışmaqla bərabər, əksəriyyəti müxtəlif xəstəxanalarda baş həkim kimi də fəaliyyət göstərir. Fakültə məzunlarının bir çoxu hazırda ABŞ, Hollandiya, İspaniya, Nigeriya, Almaniya, Kanada, Türkiyə, İran, Kipr, Gürcüstan və digər xarici ölkələrdə çalışır və ya təhsillərini davam etdirir. Rektor yeni ixtisasın açılmasında göstərdiyi xüsusi diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq edib. Göstərilən yüksək etimad və dəstəyin hərbi tibb sahəsindəki kadr hazırlığına mühüm töhfə verəcəyinə əminlik ifadə olunub.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordu komandanı, Azərbaycan müdafiə nazirinin müavini, general-polkovnik Kərəm Mustafayev qeyd edib ki, Naxçıvan Muxtar Respublikasında yerləşən birləşmə və hissələrin kiçik hərbi tibbi mütəxəssislərlə və hərbi həkim heyəti ilə təmin edilməsində yeni yaradılan Hərbi tibb ixtisası böyük əhəmiyyətə malikdir. Bu ixtisasda təhsil alan tələbələr üçün yaradılan lazımi şərait muxtar respublikada ali təhsilli hərbi tibbi kadrların hazırlığı istiqamətində atılan mühüm addım kimi dəyərləndirilib. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarından irəli gələn vəzifələrin yerinə yetirilməsinə uyğun olaraq universitetin Hərbi tibb ixtisası Əlahiddə Ümumqoşun Ordunun hamiliyinə verilib. Bildirilib ki, yüksəkixtisaslı kadr hazırlığını təmin etmək məqsədilə bu ixtisasda təhsil alan tələbələr üçün yeni geyim dəstləri və nəqliyyat vasitəsi ayrılıb. Tələbələr Naxçıvan Qarnizonu Mərkəzi Hospitalında və səhra şəraitində açılmış səyyar tibb məntəqələrində praktik məşğələlərə cəlb edilən zaman onlar üçün ayrılmış mikroavtobusdan istifadə edirlər. Qeyd olunub ki, tələbələr Naxçıvan Qarnizonu Mərkəzi Hospitalında və digər hərbi tibb müəssisələrində praktik şəkildə biliklərini artırmaq və təhsillərini başa vurduqdan sonra işlə təmin olunmaq imkanı əldə edəcəklər. Orduda əsgərlərin milli ruhda tərbiyə olunmasında aparılan məqsədyönlü təhsil siyasətinin mühüm əhəmiyyət daşıdığını diqqətə çatdıran general-polkovnik tələbələri yaradılan imkanlardan səmərəli istifadə etməyə səsləyib.

Tədbirdə Tibb fakültəsinin tanıtım videosu, Hərbi tibb ixtisasında təhsil alan tələbələrə həsr olunan videoçarx nümayiş olunub.

Fakültənin dekanı Elsevər Əsədov tələbələrin könüllülük fəaliyyətinə diqqəti çəkərək bildirib ki, fakültənin 300-dən artıq könüllü tələbəsi səhiyyə müəssisələrində çalışır, bilik və bacarıqlarını artırır, xəstə müayinələrində, cərrahi əməliyyatlarda assistent kimi iştirak edir, gecə növbələrinə də qalırlar. Vurğulanıb ki, tələbələr kliniki dərslərinin əksəriyyətini xəstəxanalarda, bilavasitə xəstələr üzərində keçirlər.

Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının rəisi, tibb xidməti polkovniki Niyaməddin Seyidov bildirib ki, hospitalda, Əlahiddə Ümumqoşun Ordunun bütün birləşmə və hissələrində yaradılan hərtərəfli şərait hərbi tibbi kadrların praktik vərdişlərinin və peşəkarlıqlarının artırılmasına müsbət təsir göstərir.

İncəsənət fakültəsi əməkdaşlarının təqdimatında konsert proqramı nümayiş olunduqdan sonra tələbələrə həkim xalatı geyindirilib və hərbi formalar təqdim olunub.

Tədbirin sonunda qonaqlar Tibb fakültəsində yaradılan yüksək maddi-texniki baza və müasir tədris şəraiti ilə tanış olublar.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Növbəti taktiki təlim

*“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının xidməti ərazisində dövlət sərhədinin mühafizəsi üzrə tapşırıqlar uğurla yerinə yetirilir və sərhəd zastavalarında şəxsi heyətin peşəkarlığı daim artırılır. Dövlət sərhədinin etibarlı mühafizəsinin təşkili və sərhədin pozulması əlamətlərinin vaxtında aşkar edilməsi məqsədilə növbəti taktiki tapşırıqlar icra edilib.*



Təlimin planına əsasən zastava rəisi tərəfindən sutkalıq qəbul olunmuş qərar əsasında sərhədpozucularının ehtimal olunan hərəkət istiqamətləri nəzərə alınmaqla xidməti ərazidə əsas qüvvələrin cəmləşmə istiqaməti təyin edilir.

Sərhəd naryadları tərəfindən təyin olunmuş sahələrdə aşkaredici qurğular yerləşdirilir. Ərazi relyefi və maskalanma tədbirləri nəzərə alınmaqla əlverişli yerlər seçilərək xidməti ərazi daim müşahidə altında saxlanılır və dövlət sərhədinin mühafizəsi təşkil olunur.

Şərti sərhəd pozucuları sərhəd naryadlarına yaxalanmamaq və öz məqsədlərinə çatmaq üçün bütün vasitələrdən istifadə edərək cəld hərəkətlərlə dövlət sərhədini pozmağa cəhd göstərirlər. Sərhəd pozucuları sərhəd naryadı tərəfindən quraşdırılmış aşkaredici qurğuya toxunur və siqnal minası işə düşür. Təşvişə düşən sərhəd pozucuları qəfil qarşılaşdıqları vəziyyətdən həyəcanlanaraq özlərini itirirlər. Aşkaredici qurğulardan daxil olmuş siqnala əsasən zastava rəisi sərhəd zastavasını “Silaha” komandasına qaldırır. Verilmiş tapşırıq əsasında həyəcan qrupu hadisə baş vermiş sahəyə çevik hərəkət edir. Sərhəd naryadı qapama qrupları ilə birgə sərhəd xətti boyunca sərhəd pozucularının hərəkətlərini məhdudlaşdırmaq və qarşısını almaq üçün təyin olunmuş hüdudlar boyu ərazini qapayır. İşıqlandırma qurğusunun heyəti hadisə baş vermiş istiqamətdə sərhədpozucularının hərəkət istiqamə-



tinin aşkar edilməsi üçün ərazinin işıqlandırılması tapşırığını icra edir.

Həyəcan qrupu qapama qrupları ilə koordinasiyalı fəaliyyətdə hərəkət edərək sərhədpozucularını yaxalayır, zərərsizləşdirir və sərhəd zastavasına təxliyə edirlər.

**Kənan CƏLİLOV**

## Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi sahəsində qarşıya qoyulan vəzifələr uğurla icra edilmişdir

Muxtar respublikada uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması ilə əlaqədar Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiya tərəfindən 2021-ci il ərzində 30 uşaq müəssisəsində monitorinq aparılması nəzərdə tutulmuşdur. Monitorinqlər zamanı uşaqların dərsə davamiyyəti, dərnək və məşğələlərin, təlim-tədris prosesinin keyfiyyəti, müəssisənin sanitar-gigiyenik vəziyyəti, təhlükəsizlik tədbirləri, eləcə də uşaqlarla davranış və hüquqlarının müdafiəsi, müəssisə binasının infrastrukturu və sair sahələr yoxlanılır. Bu il ərzində ekspert qrupunun iştirakı ilə 30 uşaq müəssisəsində monitorinq aparılmışdır. Monitorinqlərin nəticələri ekspert qrupunun üzvləri tərəfindən aktlaşdırılmış və nəticələr ilə bağlı komissiyaya məlumat verilmişdir.

Məlumat üçün bildirək ki, muxtar respublikada hazırda hər iki valideynini itirmiş 33, valideyn himayəsindən məhrum isə 40 uşaq vardır. Ümumilikdə, bu kateqoriyaya aid olan uşaqların sayı 73-dür. 2021-ci ilin ötən dövrü ərzində muxtar respublikada 16 uşaq qəyyumluq və himayəyə verilmişdir. Onların yaşadıqları evlərə baş çəkilir, problem və qayğıları araşdırılır və həlli istiqamətində aidiyyəti üzrə tədbirlər görülür.

Görülən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın ekspert qrupu və yerli icra hakimiyyətləri yanında Qəyyumluq və Himayə komissiyalarının üzvləri tərəfindən Naxçıvan şəhəri, Ordubad, Babək və Şərur rayonları üzrə 16 hər iki valideynini itirmiş, 8 valideyn himayəsindən məhrum olmuş uşaq olmaqla, ümumilikdə, 25 müvafiq kateqoriyaya aid və 1 sağlamlıq imkanları məhdud uşağın yaşadığı evlərdə monitorinqlər təşkil edilmişdir.

Monitorinq zamanı məlum olmuşdur ki, müvafiq uşaqlar aidiyyəti üzrə himayə və qəyyumluğa verilmişdir. Uşaqların sağlamlığı, eləcə də mənzil və yaşayış, tərbiyə və təhsil şəraitləri, sosial vəziyyətləri yoxlanılmış, qəyyum, himayədar və uşaqlar ilə geniş söhbətlər aparılmışdır. Aparılan monitorinqlərin nəticəsində müvafiq uşaqlarla bağlı hüquq pozulması hallarına rast gəlinməmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Naxçıvan Dövlət Universitetinin İdman Kompleksində ümumtəhsil məktəblərinin oğlanlardan ibarət klubları (VIII-XI siniflər) arasında muxtar respublika birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Naxçıvan Basketbol Federasiyası tərəfindən birgə təşkil olunan birincilikdə olimpiya sistemi üzrə 8 komanda mübarizə aparıb.*

## Naxçıvan şəhər komandası basketbol üzrə klublararası muxtar respublika çempionudur



İki gün davam edən yarışın yarımfinal mərhələsində Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin komandası ilə Culfa rayon komandası qarşı-qarşıya gəlib. Culfa komandası 18-16 hesabla qalib gəlib. Final qarşılaşmasında Naxçıvan şəhər basketbol komandası ilə Ordubad rayon komandası üz-üzə gəlib. Gərgin keçən oyunun sonunda Naxçıvan şəhər komandası 26-21 hesabla qalib olub.

Naxçıvan Basketbol Federasiyasının sədr müavini Məmmədəli Rəhimov yarışın təşkili, keçirilməsi, yarışların gedişatı və nəticələri haqqında danışıb.

Yarışın sonunda universitetin rektoru, Naxçıvan Basketbol Federasiyasının sədri Elbrus İsayev muxtar respublikada idmanın inkişafına göstərilən diqqət və qayğıya görə minnətdarlıq edib. Universitetin idman sahəsindəki uğurlarından bəhs edən federasiya sədri qazanılan nailiyyətlərin ölkədə və muxtar respublikada idmanın inkişafına, gənclərin mənəvi fiziki cəhətdən sağlam yetişməsinə göstərilən diqqət və qayğının nəticəsi kimi qiymətləndirib.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər və idman siyasətindən danışıb. Qeyd edilib ki, bu sahədə aparılan məqsədyönlü siyasət nəticəsində ölkəmiz bir sıra idman yeniliklərinə imza atıb, Azərbaycanda böyük idman infrastrukturu yaradılıb, respublikamız dünyada idman ölkəsi kimi tanınmağa başlayıb.

Sonda qaliblərə kubok, medal, diplom və hədiyyələr təqdim olunub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## “Nizami Gəncəvi – 880 il” adlı rəsm sərgisi açılıb



***Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyinə həsr edilmiş “Nizami Gəncəvi – 880 il” adlı rəsm sərgisi keçirilib.***

Tədbirdə Rəssamlar Birliyinin üzvü, sənətşünas alim Nizami Alıyev çıxış edərək Prezident cənab İlham Əliyevin böyük mütəfəkkirin anadan olmasının 880 illiyi ilə bağlı imzaladığı 2021-ci il 5 yanvar tarixli Sərəncamın mahiyyətindən danışaraq qeyd edib ki, 2021-ci ilin ölkəmizdə “Nizami Gəncəvi ili” elan edilməsi başəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış, ədəbiyyatımızın görkəmli nümayəndəsinin irsinə verilən misilsiz qiymətin ifadəsidir. Dahi şair ecazkar poetik qüvvəyə malik yaradıcılığı, “Xəmsə”si ilə bütün dünyada tanınıb. Onun əsərləri dünyanın ən zəngin kitabxanalarını bəzəməklə həm də Şərqdə incəsənətin, xüsusən də miniatür sənətinin inkişafına təkan verib. Ölkəmizdə Nizami Gəncəvinin həyatı və yaradıcılığı ilə bağlı yeni araşdırmalar aparılıb, xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər keçirilib. Keçirilən bu tədbir də Nizami irsini yaşatmaq, təbliğ etmək məqsədi daşıyır.

Tədbirdə çıxış edənlər şairin dahiyanə əsərlərinin bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərdiyini vurğulayıblar.

Sonra sərgiyə baxış olub. Rəsm əsərləri içərisində Nizami Gəncəvinin portretləri, əsərlərindən ibarət kompozisiyalar və əl işləri yer alıb. Qeyd edək ki, tədbirdə 18 rəssamın 27 rəsm əsəri nümayiş olunub. Sərgi bir həftə davam edəcək.

**Güntac ŞAHMƏMMƏDLİ**


### Bildiriş

“SİMSAR-999” Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 0200771991) fəaliyyətini dayandırdığından ləğv olunur.

### İtmişdir

“SİMSAR-999” Məhdud Məsuliyyətli Cəmiyyətinə aid 0200771991 nömrəli VÖEN şəhadətnaməsi itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47

Şöbələr: 545-81-44, 545-51-18

Müxbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 1076